# Məktəbdə professor Əjdər Ağayevlə görüş



Bu günlərdə Bakı şəhər 309 nömrəli tam orta məktəbdə görkəmli elm xadimi, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayevlə görüş keçirildi. Tədbiri məktəbin tərbiyə işləri üzrə direktor müavini Samirə Əjdərzadə açaraq qonaqları salamladı və əməkdar müəllim, professor Əjdər Ağayevin həyatı və çoxcəhətli fəaliyyəti haqqında şagirdlərə məlumat verdi. Şagirdlər Əjdər Ağayevin "Ana", "Çörək", "Ax, bu riyaziyyat", "Ana yurdum Azərbaycan", "Ana torpaq" şeirlərini söylədilər. Daha sonra professor Əjdər Ağayevin "Bizim Heydər babamız", "Qalx ayağa, Azərbaycan!" şeirlərinə bəstələnmiş mahnıları məktəbin xor kollektivi ifa etdi. Tədbirdə məktəbin gənc pedaqoqları Əjdər Ağayevə təlim-tərbiyə prosesi, sədri olduğu Təhsil Şurasının fəaliyyəti ilə bağlı müxtəlif suallar verdilər. Professor Əjdər Ağayevin tövsiyələrini, dəyərli fikirlərini, məsləhətlərini dinləmək çox maraqlı və faydalı idi.

Tədbirin sonunda məktəbin direktoru Ramiz Osmanov professor Ə.Ağayevə təşəkkürünü bildirdi və hörmətli alimlə xatirə şəkilləri çəkdirildi.

**Samirə ƏJDƏRZADƏ**